# "MYGOV" RƏQƏMSAL HÖKUMƏT PLATFORMASI




**"MYGOV"** – dövlət xidmətlərinə və sənədlərinə vahid məkandan çıxış imkanı verən, növbələri və kağız sənəd dövriyyəsini tamamilə ortadan qaldıran rəqəmsal platformadır.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən idarə olunan sistem vətəndaşların gündəlik həyatını asanlaşdırmağa, xidmətləri daha şəffaf və sürətli etməyə xidmət edir.

## "mygov"-dan niyə istifadə etməliyəm?

**"mygov"** sadəcə bir portal deyil, həm də vaxta və resurslara maksimum qənaət etməyin ən təhlükəsiz yoludur. Şəxsi məlumatların yüksək təhlükəsizlik standartları ilə qorunduğu bu sistem vətəndaşlara dövlət idarəçiliyi ilə münasibətləri evdən və ya ofisdən çıxmadan, bir neçə kliklə tənzimləmək azadlığı verir.

**Maksimum Qənaət:** Dövlət qurumlarına getmədən işlərinizi evdən və ya ofisdən həll edirsiniz.

**Yüksək Təhlükəsizlik:** Şəxsi məlumatlarınız dövlət standartları ilə tam qorunur.

**Şəffaflıq:** Məlumatlarınıza kimin və nə vaxt baxdığına tam nəzarət edirsiniz.

## “mygov” ilə saniyələr içində onlayn kredit!

Kredit alarkən iş yerindən kağız arayış toplamağa ehtiyac yoxdur. Sistem bank tətbiqləri ilə tam inteqrasiya olunub:

**Sorğu:**
Bankın mobil tətbiqindən onlayn kredit müraciəti edirsiniz

**Bildiriş:**
Bank məlumatlarınız üçün **mygov**-a sorğu göndərir və sizə bildiriş gəlir

**İcazə:**
**mygov** daxilində *"İcazələrin idarə edilməsi"* bölməsindən banka rəqəmsal razılıq verirsiniz

**Təsdiq:**
Məlumatlar anında rəsmi reyestrdən yoxlanılır, kredit təsdiqlənir və pul karta köçürülür

**Dövlət xətti ilə güzəştli ipoteka krediti üçün birbaşa “mygov” daxilindəki *"İpoteka və Kredit Zəmanət Fondu"* bölməsindən müraciət edə bilərsiniz.**

## “mygov”-dan kredit müraciətinin 5 faydası




- **Sənədsiz Proses:** Mühasibatlıqdan möhürlü maaş arayışı almağa ehtiyac qalmır
- **Sürət:** Bankda saatlarla növbə gözləmədən, iş bir neçə dəqiqəyə həll olunur
- **Sıfır Risk:** Məlumatlar birbaşa dövlət bazasından götürüldüyü üçün təsdiq ehtimalı yüksəlir
- **Tam Nəzarət:** Banklar məlumatlarınıza gizli baxa bilməz. İcazəni istənilən an ləğv edə bilərsiniz
- **7/24 Əlçatanlıq:** Gecə və ya istirahət günü fərq etmədən istənilən an müraciət imkanı

**Bizimlə öyrən, idarə et, qazan!**